AZƏRBAYCAN RESPUBLİKASI HESABLAMA PALATASI

# DÖVLƏT BÜDCƏSİNİN İCRASI BARƏDƏ YARIMİLLİK MƏLUMATA XÜLASƏ

2023



***... biz ayrılan hər bir vəsaitə böyük qənaətlə yanaşmalıyıq və şəffaflıq tam təmin edilməlidir - həm büdcə gəlirlərinin toplanmasında, həm də xərclənməsində.***

***2023-cü ilin altı ayının yekunlarına həsr olunan müşavirədə***

***Azərbaycan Respublikasının Prezidenti***

***cənab İlham Əliyevin nitqindən***

# MAKROİQTİSADİ MÜHİT

*2023-cü ilin yanvar-iyun aylarında dövlət büdcəsinin parametrləri əlverişli makroiqtisadi mühitdə icra edilmiş, əsas makroiqtisadi göstəricilər üzrə izlənən dinamika büdcə parametrlərinin icrasına müsbət təsir etmişdir. Hesabat dövründə ölkə iqtisadiyyatında 60302,1 mln. manat ÜDM qeydə alınmışdır ki, bu da cari il üzrə proqnozun 54,0%-nə bərabərdir. İqtisadi artım tamamilə qeyri-neft sahələri hesabına təmin olunmuş, inflyasiya ikirəqəmli qalmaqda davam etmişdir. Valyuta hərraclarında valyutaya tələb azalmış, DNF transfertləri az icra olunmuşdur.*

**Neftin faktiki qiymətinin təsdiq edilmiş göstəricidən çox olması neft sektoru üzrə ÜDM-in illik proqnozunun əhəmiyyətli hissəsinin ilk yarımildə təmin olunması və bu sektordan dövlət büdcəsi gəlirlərinin yüksək icrası ilə nəticələnmişdir.**

Hesabat dövründə ÜDM 60302,1 mln. manat olmuş, ÜDM-də qeyri neft-qaz sahələrinin payı 60%-ə yüksəlmişdir. Neftin faktiki qiymətinin büdcə üzrə təsdiq edilmiş qiymətdən çox olması ilin birinci yarısında neft-qaz ÜDM-i üzrə illik proqnozun 71,1%-nin icrası ilə nəticələnmişdir. Bu, dövlət büdcəsinin neft sektoru üzrə vergi gəlirlərinə təsir etmiş, bu gəlirlər 3987,7 mln. manat olmaqla, dövrün proqnozunu 1349,8 mln. manat üstələmişdir.

**Ümumi daxili məhsulun strukturu, nominal ifadədə, mlrd. manatla**

| Göstəricilər | 6 ay icra | | 2023-cü il proqnoz | | İcra faizi |
|---|---|---|---|---|---|
| | 2022 | 2023 | İlkin | Yenilənən | |
| **ÜDM** | **63,4** | **60,3** | **106,0** | **111,6** | **54,0%** |
| Neft-qaz sektoru | 31,4 | 24,1 | 32,7 | 33,9 | 71,1% |
| Qeyri neft-qaz sektoru | 32,0 | 36,2 | 73,3 | 77,7 | 46,6% |
| **Neftin qiyməti, ABŞ dolları ilə** | **104,6** | **80,1** | **50,0** | **60,0** | **133,5%** |

**İqtisadi artım tamamilə qeyri neft-qaz sahələri hesabına təmin edilmiş, daxili tələb amilləri məcmu tələbin aktivləşməsində əsas rol oynamışdır.**

Hesabat dövründə iqtisadi artım 0,5% (2022-ci ilin 6 ayında 6,2%) olmuş və tamamilə qeyri neft-qaz sahələri hesabına təmin edilmişdir. İqtisadi artımın zəifləməsi neft hasilatının azalması, bəzi qeyri neft-qaz sahələrində yuxarı baza effekti nəticəsində artım tempinin zəifləməsi ilə izah olunur. Qeyri neft-qaz sahələrinin 3,1% artımında əsas rol turizm və tikinti sektorlarına məxsus olmuş, tikintidə 9,2% artım əsas kapitala daha çox investisiya yönəldilməsi ilə bağlı olmuşdur. 18,0 mlrd. ABŞ dolları olan ixrac 2,8% azalsa da, 8,2 mlrd. ABŞ dolları olan idxal həcmi 29,0% artmış, məcmu tələbin artımı daxili amillərdən formalaşmışdır.

**Hesabat dövründə əsas kapitala investisiyaların strukturu, mln. manatla**



# MAKROİQTİSADİ MÜHİT

**İlin əvvəlinə nisbətən inflyasiya bir qədər zəifləsə də, ikirəqəmli olaraq qalmaqda davam etmiş, həm daxili, həm də xarici amillər inflyasiyaya təsir etmişdir.**

2023-cü ilin yanvar-iyun aylarında orta illik inflyasiya 12,7% olmuş, ilin əvvəli ilə müqayisədə sürəti bir qədər zəifləmişdir (2022-ci ildə orta illik inflyasiya 13,9%). İstehlak səbətinə daxil olan bütün alt qruplar üzrə qiymət artımı ikirəqəmli qalmaqda davam etmiş, baxılan dövrdə də ən yüksək bahalaşma ərzaq məhsulları üzrə qeydə alınmışdır (15,1%).İyun ayında əvvəlki aya nəzərən 0.9%-lik deflyasiya müşahidə edilmişdir.

Hesabat dövründə orta illik inflyasiyanın ikirəqəmli qalması həm xarici, həm də daxili amillər ilə izah edilir. Belə ki, yanvar-iyun aylarında idxal olunan mallar orta illik qiymətləndirmədə 18,9% bahalaşmış, AMB tərəfindən sterilizasiya əməliyyatlarının tətbiqi fonunda manatla pul bazası iyun ayının sonunda illik ifadədə 17,6% artmışdır. Baxılan dövr ərzində istehsalçı qiymət indekslərində də artım izlənmişdir. Manatın nominal effektiv məzənnəsinin möhkəmlənməsi idxal inflyasiyasını bir qədər neytrallaşdırmış və inflyativ proseslərə azaldıcı təsir etmişdir.

**Hesabat dövründə istehsalçı qiymətləri indeksinin orta illik dəyişməsi, %**

**Emal sənayesi üzrə**



**5,1%**

**Kənd təsərrüfatı üzrə**



**11,1%**

**Nəqliyyat və anbar təsərrüfatı üzrə**



**9,9%**

**Dövlət büdcəsinə proqnozdan çox valyuta daxil olması, valyuta hərraclarında xarici valyutaya tələbin azalması DNF transfertlərinin aşağı icrasını şərtləndirmişdir.**

Hesabat dövründə 45 valyuta hərracında 1571,1 mln. ABŞ dolları həcmində valyuta satışı reallaşdırılmışdır. Baxılan dövrdə valyuta tələbi ötən ilin müvafiq dövründən 1,7 dəfə az olmuşdur. Tələbin azalması tədiyə balansında müsbət saldonun, o cümlədən dövlət büdcəsinin xarici valyutada daxilolmalarının və xaricdən daxil olmuş fiziki şəxslərin pul baratlarının (I rüb üzrə təxminən 2 dəfə) artmaqda davam etməsi ilə izah olunur. Valyutaya tələbin azalmasının digər göstəricisi kimi nağd valyuta bazarında banklar tərəfindən ABŞ dollarının alışının satışını üstələməsi qeyd oluna bilər. Xarici valyutaya tələbin azalması və dövlət büdcəsinə vergi və gömrük orqanları xətti ilə təmin olunan daxilolmaların yüksək icrası dövlət büdcəsinə DNF transfertlərinin aşağı icrası ilə nəticələnmişdir.

**Valyutaya tələb, mln. ABŞ dolları ilə**



# BÜDCƏ VƏSAİTLƏRİNİN İDARƏ EDİLMƏSİ

*Hesabat dövründə dövlət büdcəsi profisitlə icra edilmiş, gəlir və xərclərin, eləcə də dövlət büdcəsi balansının proqnoz və icra göstəriciləri fərqlənmişdir. Profisitli büdcə şəraitində vahid xəzinə hesabının sərbəst qalığının idarəetməyə verilən hissəsi baxılan dövr ərzində yüksəlmişdir. Dövlət büdcəsində profisitin proqnozlaşdırıldığı bəzi aylarda kəsirin maliyyələşdirilməsindən daxilolma nəzərdə tutulmuş və icra edilmişdir.*

**İyun ayında dövlət büdcəsi gəlirlərinin aşağı icrası cəmi gəlirlərin proqnozdan az icra edilməsini şərtləndirmişdir.**

Hesabat dövründə dövlət büdcəsi gəlirlərinin icrası 3 ay proqnozdan artıq, 3 ay isə proqnozdan az olmuş, ən aşağı icra səviyyəsi və məbləği iyun ayında qeydə alınmışdır. Bu ayda dövlət büdcəsi gəlirlərinin icrası 1519,0 mln. manat təşkil etmiş, proqnozla müqayisədə 573,4 mln. manat və ya 27,4% az olmuşdur. Yanvar-may aylarında dövlət büdcəsi gəlirlərinin icra səviyyəsi 103,3% təşkil etmiş, iyun ayında aşağı icra nəticəsində cəmi gəlirlərin icra səviyyəsi 99,2%-ə enmişdir. İyun ayı üzrə aşağı icra proqnozla müqayisədə DNF-dən transfertlərin 808,0 mln. manat, büdcədənkənar daxilolmaların 7,2 mln. manat, sair gəlirlərin isə 1,3 mln. manat az olması ilə əlaqədar olmuşdur.

**Hesabat dövründə dövlət büdcəsi gəlirləri, aylıq, mln. manatla**




**Hesabat dövründə dövlət büdcəsi xərclərinin icrası proqnozu üstələmiş, xərclərin aylar üzrə proqnoz və icra məbləğləri arasında fərqlər qeydə alınmışdır.**

2023-cü ilin birinci yarısında dövlət büdcəsinin xərcləri 14063,3 mln. manat təşkil etmiş, proqnozla müqayisədə 5,7%, ötən ilin analoji göstəricisi ilə müqayisədə isə 8,7% çox olmuşdur. Aprel və may ayları istisna olmaqla, digər 4 ayda xərclərin icrası proqnozdan artıq olmuşdur

İlk 6 ayda dövlət büdcəsi xərclərinin ən yüksək icra məbləği iyun ayında, ən yüksək icra səviyyəsi isə mart ayında qeydə alınmışdır. Hər iki ay üzrə yüksək icra əsasən əməyin ödənişi, sosial ödənişlər, iş və xidmətlərin alınması ilə bağlı xərclərin çox icra edilməsi ilə əlaqədar olmuşdur.

**Hesabat dövründə dövlət büdcəsi gəlirləri, aylıq, mln. manatla**



# BÜDCƏ VƏSAİTLƏRİNİN İDARƏ EDİLMƏSİ

**Profisitli büdcə hesabına sərbəst qalıqda artım şəraitində idarəetməyə verilən vəsaitlərin həcmi baxılan dövr ərzində yüksəlmişdir.**

Dövrün sonuna vahid xəzinə hesabının sərbəst qalığı 2313,0 mln. manata bərabər olmaqla, ilin əvvəli ilə müqayisədə 1452,6 mln. manat artmışdır. Sərbəst qalığın artması yanvar və aprel aylarında əhəmiyyətli profisitin qeydə alınması və müvafiq aylarda profisitli büdcə şəraitində kəsirin maliyyələşdirilməsindən daxilolmalarla əlaqəli olmuşdur.

1-ci yarımil üzrə profisitin nəzərdə tutulması və faktiki olaraq qeydə alınması fonunda sərbəst qalığın idarəetməyə verilən hissəsi demək olar ki davamlı artmış, DNF-ə idarə olunması məqsədilə müddətsiz şərtlərlə verilmiş vəsaitin həcmi 2380,0 mln. manata yüksəlmişdir. Vəsaitlərin idarəedilməsindən dövlət büdcəsinə daxilolmaların həcmi 5,8 mln. manat olmaqla, dövrün proqnozunu 5,3 dəfə üstələmişdir.

**Sərbəst qalığın idarə edilməsi, dövrün sonuna, mln. manatla**




**Profisitin proqnozlaşdırıldığı və icra olunduğu bəzi aylarda kəsirin maliyyələşdirilməsindən vəsait nəzərdə tutulmuş və mədaxil edilmiş, Hesablama Palatası mövcud maliyyə planlaşmasının əlavə büdcə xərclərinə şərait yaratdığı qənaətinə gəlmişdir.**

Yanvar, mart və aprel aylarında profisitin nəzərdə tutulmasına baxmayaraq, kəsirin maliyyələşdirilməsi üzrə də vəsait daxil olması proqnozlaşdırılmışdır. Bununla yanaşı, dövlət büdcəsinin balansı üzrə artan yekunla hesablanan həm proqnoz, həm də icra göstəricilərinin kəsirin maliyyələşdirilməsi üzrə daxilolma məbləğləri ilə müqayisəsi də fərqlərin mövcud olduğunu göstərir. Belə ki, hesabat ilinin yanvar-iyun ayları üzrə 1416,6 mln. manat profisitin olmasına baxmayaraq, kəsirin maliyyələşdirilməsi mənbələri üzrə 464,7 mln. manat, o cümlədən daxili borclanmadan 290,9 mln. manat vəsait cəlb edilmişdir.

**Dövlət büdcəsinin balansı, kəsirin maliyyələşdirilməsi üzrə daxilolmalar, artan yekunla, mln. manatla**



# DÖVLƏT BÜDCƏSİNİN GƏLİRLƏRİ

*Hesabat dövründə dövlət büdcəsinin gəlirləri 15479,9 mln. manat məbləğində icra edilmiş, dövrün proqnozundan 128,9 mln. manat az olmuşdur. Vergi və gömrük xətti ilə daxilolmaların yüksək icrası DNF transfertlərində aşağı icranı şərtləndirmişdir. Cəmi gəlirlərdə qeyri neft-qaz gəlirlərinin payı yüksəlmişdir. Gəlirlər üzrə artıq ödəmə, eləcə də borc məbləğlərində artım izlənmişdir.*

**Yüksək neft qiymətlərinin vergi daxilolmalarına müsbət təsiri DNF transfertlərinin az icrasına səbəb olan amillərdən olmuş, bu transfertlərin yarıdan çoxu reallaşmamışdır.**

Müvafiq dövr ərzində digər gəlir inzibatçıları, xüsusən də DVX tərəfindən neft sektoru üzrə vergilərin çox daxilolması hesabına proqnozun artıqlaması ilə icrası DNF transfertləriniin az icra edilməsi ilə nəticələnmişdir. Digər mənbələr üzrə icra proqnozu üstələmiş, məqsədli büdcə fondlarının qalığı ilə bağlı vəsaitin icrası isə proqnoza bərabər olmuşdur. DNF transfertləri üzrə az icra olunmuş məbləğ digər icraçılar üzrə proqnozdan artıq icra edilmiş gəlirlərdən çox olduğu üçün cəmi gəlirlər üzrə icra proqnozdan 128,9 mln. manat az olmuşdur.

**Dövlət büdcəsi gəlirlərinin gəlir inzibatçıları üzrə bölgüsü, mln. manatla**




**DNF transfertlərinin aşağı icrası dövlət büdcəsinin neft-qaz gəlirlərinin proqnozdan az icrası ilə nəticələnmiş, qeyri neft-qaz gəlirlərinin cəmi gəlirlərdə payı yüksəlmişdir.**

Hesabat dövründə dövlət büdcəsinin neft-qaz gəlirləri 6648,7 mln. manat olmuş, dövrün proqnozuna nisbətən 1629,2 mln. manat az icra edilmişdir. Neft-qaz sektorundan vergi daxilolmaları proqnozla müqayisədə çox icra olunsa da, DNF transfertlərinin proqnoza nisbətən aşağı icrası bu sektor üzrə cəmi gəlirlərin az icrasını şərtləndirmişdir. İllik müqayisədə qeyri neft-qaz gəlirlərinin çox, neft-qaz gəlirlərinin isə az icra edilməsi qeyri neft-qaz gəlirlərinin cəmi gəlirlərdə payının yüksəlməsi ilə nəticələnmiş, bu gəlirlərin payı 52,5%-dən 57,0%-dək artmışdır.

**Dövlət büdcəsinin gəlirlərinin neft-qaz amili üzrə bölgüsü, mln. manatla**

| Göstəricilər | Proqnoz | Fakt | Fərq |
|---|---|---|---|
| **Dövlət büdcəsinin gəlirləri** | **15608,8** | **15479,9** | **-128,9** |
| **Neft-qaz gəlirləri** | **8277,9** | **6648,7** | **-1629,2** |
| DNF transferti | 5640,0 | 2661,0 | -2979,0 |
| Neft-qaz sektorundan vergi daxilolmaları | 2637,9 | 3987,7 | 1349,8 |
| Hasilatın pay bölgüsü sazişlərində podratçı tərəflərin mənfəət vergisi | 1806,0 | 2995,2 | 1189,2 |
| ARDNŞ-in vergiləri | 831,9 | 992,5 | 160,6 |
| **Qeyri neft-qaz gəlirləri** | **7330,9** | **8831,2** | **1500,3** |

# DÖVLƏT BÜDCƏSİNİN GƏLİRLƏRİ

**Dövlət büdcəsi haqqında Qanunda əks etdirilmiş bəzi mədaxil mənbələri üzrə təsdiq edilmiş məbləğin yarıdan çoxu, bəziləri üzrə isə yenidən baxılma zamanı nəzərdə tutulmuş əlavə artımın çox hissəsi ilk 6 ayda icra edilmişdir.**

Cari ilin yanvar-aprel aylarında dövlət büdcəsinin gəlirləri (DNF transfertləri nəzərə alınmadan) təsdiq edilmiş proqnozu əhəmiyyətli fərqlə üstələmiş, bu isə dövlət büdcəsinə yenidən baxılma zamanı cəmi gəlirlərin 3116,5 mln. manat artırılması ilə nəticələnmişdir. Bəzi mədaxil mənbələri üzrə nəzərdə tutulan artımın böyük bir hissəsi ilin birinci yarısında icra edilmişdir. Bununla yanaşı, bəzi tədiyələr üzrə proqnozlar reallaşmamış, bəzi tədiyələr üzrə isə proqnozlaşdırılmadığı halda gəlirlər icra edilmişdir.

**Qanunda göstərilən bəzi mədaxil mənbələri, mln. manatla**

| Mədaxil mənbələri | 2023, 6 ay | | Artım/azalma | |
|---|---|---|---|---|
| | proqnoz | icra | yenidən baxılma | 6 ay |
| **Dövlət büdcəsinin gəlirləri,** | **15608,8** | **15479,9** | **3116,5** | **-128,9** |
| hüquqi şəxslərin mənfəət vergisi | 3441,9 | 5240,8 | 1061,1 | 1798,9 |
| əlavə dəyər vergisi | 3102,3 | 4064,9 | 1164,9 | 962,6 |
| *malların idxalına görə əlavə dəyər vergisi* | 1592,8 | 2186,2 | 832,2 | 593,4 |
| sadələşdirilmiş vergi | 149,4 | 173,4 | 46,4 | 24 |
| gömrük rüsumları | 665,3 | 768,7 | 107,6 | 103,4 |
| dövlət əmlakının icarəyə verilməsindən daxilolmalar | 8,9 | 16 | 5 | 7,1 |
| büdcə təşkilatlarının ödənişli xidmətlərindən daxilolmaları | 301,3 | 393,7 | 130,5 | 92,4 |

**İlin birinci yarısında dövlət büdcəsi gəlirlərinin tərkibində vergi daxilolmalarının xüsusi çəkisi fərqlənmiş, dövlət büdcəsi gəlirləri əsasən üç mənbədən formalaşmışdır.**

Müvafiq dövr üzrə gəlirlərin tərkibində vergilərdən daxilolmalar ən yüksək çəkiyə malik olmuşdur. Başqa sözlə, vergilərdən daxilolmalar 11243,7 mln. manata bərabər olmaqla, büdcə gəlirlərinin 72,6%-ni təşkil etmişdir. Vergi gəlirlərinin tərkibində əsas pay ƏDV və mənfəət vergisi üzrə daxilolmalara məxsus olmuş, bu mənbələrdən daxilolmalar vergi daxilolmalarının 82,8%-ni, cəmi gəlirlərin 60,1%-ni əhatə etmişdir.

Qeyri-vergi gəlirləri isə 4236,2 mln. manat olmuş, bu gəlir mənbələri arasında DNF transfertləri və gömrük rüsumları fərqlənmişdir. Belə ki, bu iki mənbənin qeyri-vergi gəlirlərində xüsusi çəkisi 81,0%-ə bərabər olmuşdur. Təhlillər dövlət büdcəsi gəlirlərinin 77,3%-nin qeyd etdiyimiz 3 əsas mənbədən (mənfəət vergisi, ƏDV, DNF transfertləri) formalaşdığını vurğulamaq imkanı verir.

**Dövlət büdcəsinin vergi və qeyri-vergi gəlirləri, mln. manatla**



# DÖVLƏT BÜDCƏSİNİN GƏLİRLƏRİ

**Baxılan dövrdə DVX xətti ilə gəlirlər proqnozdan artıq icra edilmiş, əlverişli makroiqtisadi şəraitdə mənbələr üzrə vergitutma bazasının artması fonunda yaranan gəlir potensialı büdcə daxilolmalarının həcmində əksini tapmışdır.**

İlin ilk 6 ayında DVX xətti ilə gəlirlər 7188,4 mln. manat proqnoza qarşı 9181,4 mln. manat icra edilmiş, illik müqayisədə 2699,3 mln. manat və ya 41,6% çox olmuşdur. DVX xətti ilə təmin edilmiş gəlirlərin yüksək icrası əlverişli makroiqtisadi şəraitdə reallaşdırılmışdır.

DVX xətti ilə gəlirlərin illik proqnozunun 61,3%-i ilin birinci yarısında icra edilmiş, ƏDV, mənfəət vergisi, yol vergisi, sadələşdirilmiş vergi, dövlət mülkiyyətində olan torpaqların icarəyə verilməsindən icarə haqqı üzrə illik proqnozun 50%-dən çoxunun büdcəyə daxilolması təmin edilmişdir. İllik proqnozla müqayisədə ən yüksək icra mənfəət vergisi üzrə qeydə alınmışdır.

**DVX xətti ilə təmin olunmuş bəzi gəlirlər, mln. manatla**




**Hesabat dövründə vergi orqanları xətti ilə təmin edilməli gəlirlər üzrə borc məbləğində artım izlənmiş, xüsusi mülkiyyət üzrə vergi borcları cəmi borclarda əsas paya malik olmuşdur.**

01.07.2023-cü il tarixinə dövlət büdcəsinə vergi borclarının (qalıqların) həcmi ilin əvvəlinə nisbətən 404,2 mln. manat artaraq 2806,9 mln. manat təşkil etmişdir. Bu məbləğin 7,2%-i neft-qaz sektorunda, 92,8%-i isə qeyri neft-qaz sektorunda fəaliyyət göstərən vergi ödəyicilərinin payına düşmüş, bu sektorlar üzrə vergi borcları ilin əvvəli ilə müqayisədə müvafiq olaraq 2,4 dəfə və 12,4% artmışdır.

Qeyri neft-qaz sektoru üzrə vergi borclarında əsas pay xüsusi mülkiyyət növünə məxsus olmuşdur. Belə ki, bu mülkiyyət növü üzrə borclar müvafiq sektor üzrə borcların 85,0%-ni təşkil etməklə daha çox ticarət və tikinti sahəsində fəaliyyət göstərən vergi ödəyiciləri üzrə yaranmışdır.

**Qeyri neft-qaz sektorunda borcların mülkiyyət növləri üzrə bölgüsü, mln. manatla**



# DÖVLƏT BÜDCƏSİNİN GƏLİRLƏRİ

**Hesabat dövründə dövlət büdcəsinə təmin olunan gəlirlər üzrə artıq ödəmə məbləğində artım izlənmiş, xüsusi mülkiyyət üzrə artıq ödəmə əsas hissəsini təşkil etmişdir.**

01.07.2023-cü il tarixinə dövlət büdcəsinə təmin olunan gəlirlər üzrə artıq ödəmənin məbləği ilin əvvəli ilə müqayisədə 424,7 mln. manat və ya 24,6% artaraq 2150,0 mln. manat təşkil etmişdir. Bu məbləğin 181,7 mln. manatı neft-qaz sektorunun, 1968,3 mln. manatı isə qeyri neft-qaz sektorunun payına düşmüşdür ki, bu da ilin əvvəli ilə müqayisədə müvafiq olaraq 113,2 mln. manat və ya 2,7 dəfə və 311,5 mln. manat və ya 18,8% çoxdur. Qeyri neft-qaz sektorunda bütün mülkiyyət növləri üzrə artıq ödəmə qeydə alınmış, xüsusi mülkiyyət əsas paya malik olmuşdur.

**Dövlət büdcəsinə təmin olunan gəlirlər üzrə artıq ödəmə məbləği, mln. manatla**

| Göstəricilər | Artıq ödəmə məbləği |
|---|---|
| **Cəmi** | **2150,0** |
| **Neft-qaz sektoru üzrə** | **181,7** |
| ARDNŞ | 118,8 |
| Neft-qaz sazişləri çərçivəsində fəaliyyət göstərənlər | 62,9 |
| **Qeyri neft-qaz sektoru üzrə** | **1968,3** |
| Dövlət mülkiyyəti | 607,4 |
| Xüsusi mülkiyyət | 1005,9 |
| Bələdiyyə mülkiyyəti | 0,2 |
| Xarici mülkiyyət | 204,3 |
| Birgə (xarici qarışıq) mülkiyyət | 150,0 |
| Beynəlxalq təşkilatların mülkiyyəti | 0,5 |

**Hesabat dövründə idxal həcminin və idxal inflyasiyasının artması fonunda gömrük orqanları xətti ilə daxilolmalar proqnozu əhəmiyyətli dərəcədə üstələmişdir.**

Cari ilin ilk altı ayı ərzində gömrük daxilolmaları 2370,0 mln. manat proqnoza qarşı 3075,4 mln. manat icra edilmişdir. Bu göstərici ötən ilin müvafiq dövründən 535,6 mln. manat və ya 21,1% çox olmuşdur. Gömrük daxilolmaları proqnozu ən az may ayında (76,9 mln. manat), ən çox isə mart ayında (143,1 mln manat) üstələmişdir.

İdxal həcminin real və nominal ifadədə artması DGK xətti ilə illik müqayisədə daha çox daxilolmaların icrası ilə nəticələnmişdir. DSK-nın məlumatlarına əsasən, yanvar-iyun aylarında idxal real ifadədə 8,5%, nominal ifadədə isə 29,0% artmış, bu isə gömrük daxilolmalarının artımında idxal mallarına tələblə müqayisədə idxal olunan malların qiymətinin artmasının daha çox rolunun olduğunu deməyə imkan vermişdir. DGK xətti ilə daxilolmaların həcmində ƏDV və yol vergisi müvafiq olaraq ən çox və ən az xüsusi çəkiyə malik olmuşdur.

**DGK xətti ilə gəlirlərin mədaxil mənbələri üzrə bölgüsü, mln. manatla**

| Mədaxil mənbələri | 6 ay icra | 6 ay proqnoz |
|---|---|---|
| Gömrük rüsumları | 768,7 | 665,3 |
| ƏDV | 2186,2 | 1592,8 |
| Aksizlər | 97,4 | 87,2 |
| Yol vergisi | 23,1 | 24,6 |
| **Cəmi** | **3075,4** | **2370,0** |

# DÖVLƏT BÜDCƏSİNİN XƏRCLƏRİ

*2023-cü ilin yanvar-iyun aylarında dövlət büdcəsinin xərcləri 14063,3 mln. manat təşkil etmiş, proqnozla müqayisədə 5,7% çox olmuşdur. Baxılan dövrdə əksər funksional bölmələr üzrə icra məbləği proqnozu üstələmişdir. Cari və əsaslı xərclərin artımı fonunda dövlət borcuna xidmət xərcləri azalmış, debitor borclarda artım qeydə alınmışdır.*

**Hesabat dövründə əksər funksional bölmələr üzrə icra məbləği proqnozu üstələmiş, sosial sektora yönəldilmiş xərclər üstünlük təşkil etmişdir.**

İlk 6 ayda dövlət büdcəsi xərclərinin funskional təsnifatında 4 bölmə istisna olmaqla, digər bölmələr üzrə icra edilmiş xərclər dövrün proqnozunu üstələmişdir. Bölmələrin icra səviyyəsi 52,0%-122,6% arasında dəyişmiş, ən yüksək icra səviyyəsi "Səhiyyə", ən aşağı icra səviyyəsi isə "Əsas bölmələrə aid edilməyən xidmətlər" bölməsinə aid olmuşdur. Hesabat dövründə sosial sahəyə yönəldilmiş xərclər üstünlük təşkil etmiş, icra edilmiş 14063,3 mln. manat xərcin 37,7%-i sosial sektorun payına düşmüşdür.

**İcra edilmiş dövlət büdcəsi xərclərinin funksional sahələr üzrə bölgüsü, mln. manatla**




**Ehtiyat fondlarının vəsaitinin həcmi qanunvericiliklə müəyyən edilmiş hədd çərçivəsində olmuşdur.**

2023-cü ildə ehtiyat fondlar üzrə cəmi 449,5 mln. manat nəzərdə tutulmuş, imzalanmış sərəncamlara əsasən hesabat dövrü üzrə 129,2 mln. manat ayrılmış, 56,3 mln. manat maliyyələşmə açılmışdır. Ehtiyat fondları üzrə icra edilmiş vəsait qanunvericilikdə müəyyən edilmiş hədd çərçivəsində olmuşdur.

Sərəncamların rüblər üzrə təhlili göstərir ki, hər iki fond üzrə həm say ifadəsində, həm də məbləğ ifadəsində ən böyük xüsusi çəki 2-ci rübə aid olmuşdur.

**Ehtiyat fondları barədə məlumat, mln. manatla**

| Ehtiyat fondları | Nəzərdə tutulan məbləğ | Sərəncamlarla ayrılması nəzərdə tutulan məbləğ | Faktiki açılmış maliyyələşdirmə məbləği | Sərən-cam verilmə-miş vəsait | Sərəncamlara əsasən açılmamış maliyyələşdirmə |
|---|---|---|---|---|---|
| *Dövlət Büdcəsinin Ehtiyat Fondu* | 149,5 | 67,5 | 25,0 | 82,0 | 42,5 |
| *Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondu* | 300,0 | 61,7 | 31,3 | 238,3 | 30,4 |

# DÖVLƏT BÜDCƏSİNİN XƏRCLƏRİ

**Dövlət əsaslı vəsait qoyuluşunun ilk yarımildə icra səviyyəsi təsdiq edilmiş bölgüdən az olmuş, investisiya xərcləri dövlət əsaslı vəsait qoyuluşu xərcləri ilə yanaşı, digər mənbə və istiqamətlər üzrə investisiyayönümlü xərclərdən formalaşmışdır.**

2023-cü ilin ilk yarımilində dövlət əsaslı vəsait qoyuluşu təsdiq edilmiş 6 aylıq bölgüyə (1057,0 mln. manat) qarşı 679,4 mln. manat (64,3%) icra olunmuşdur. Dövlət əsaslı vəsait qoyuluşu xərcləri 54 sifarişçi təşkilata 348 layihə üzrə nəzərdə tutulmuşdur. Baxılan dövrdə 31 sifarişçi təşkilat üzrə 176 layihəyə cəmi 566,0 mln. manat vəsait ödənilmişdir.

Əvvəlki illərdə olduğu kimi, dövlət əsaslı vəsait qoyuluşu ilə yanaşı, dövlət büdcəsində digər istiqamətlərdən də investisiyayönümlü xərclər həyata keçirilmişdir. Belə ki, ehtiyat fondları, iqtisadi və funksional təsnifatın müxtəlif bölmələri üzrə də investisiyayönümlü xərclər həyata keçirilmişdir.

**Dövlət əsaslı vəsait qoyuluşu xərcləri, mln. manatla**




**Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə cari və əsaslı xərclərin artımı fonunda dövlət borcuna xidmət xərcləri azalmış, cari xərclərin dövlət büdcəsinin qeyri neft-qaz gəlirləri ilə təmin olunma səviyyəsi yüksəlmişdir.**

2023-cü ilin birinci yarısında əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə cari xərclər 11,5%, əsaslı xərclər 13,9% artmaqla müvafiq olaraq 9718,8 mln. manat və 3913,7 mln. manat təşkil etmiş, dövlət borcuna xidmət xərcləri isə 45,3% azalaraq 430,8 mln. manata bərabər olmuşdur. Hesabat dövründə də cari xərclərin cəmi xərclərdə payı daha yüksək olmuş və 69,1% təşkil etmişdir.

Hesabat dövründə cari xərclərin qeyri neft-qaz gəlirləri hesabına təmin olunma səviyyəsi ötən ilin müvafiq dövrü ilə müqayisədə 5,3 faiz bəndi artaraq 90,9% olmuşdur. Bu, qeyri neft-qaz gəlirlərinin artım tempinin cari xərclərin artım tempindən yüksək olması ilə əlaqədardır. Belə ki, qeyri neft-qaz gəlirləri 8831,2 mln. manat olmaqla illik müqayisədə 18,4% artmışdır ki, bu da cari xərclərin artım tempindən 6,9 faiz bəndi çoxdur.

**Dövlət büdcəsi xərclərinin strukturu, mln. manatla**



# DÖVLƏT BÜDCƏSİNİN XƏRCLƏRİ

**Hesabat dövründə icra edilmiş xərclərin illik proqnozda payı 0,5%-100,0% aralığında dəyişmiş, icra edilməyən xərclərdə Strategiya ilə bağlı xərclər üstünlük təşkil etmişdir.**

2023-cü ildə nəzərdə tutulmuş xərclər 235 fəsli əhatə etmiş, ilin birinci yarısında 19 fəsil üzrə xərc həyata keçirilməmişdir. Baxılan dövrdə fəsillər üzrə icra edilmiş xərclərin illik proqnoza nisbəti 0,5%-100,0% aralığında dəyişmişdir.

İlk 6 ayda xərc icra edilməyən fəsillər üzrə illik 1955,3 mln. manat nəzərdə tutulmuş, bu məbləğin 42,8%-i “Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyası”nın layihələrinin maliyyələşdirilməsi ilə bağlı olmuş və icra edilməmiş xərclərdə Strategiya ilə bağlı xərclər əsas paya malik olmuşdur. İnzibati təsnifat üzrə xərclərin bir qisminin icra olunmaması həmin istiqamətlərin yenidən baxılan dövlət büdcəsində təsdiq edilməsi ilə bağlıdır.

**2023-cü ildə xərc nəzərdə tutulan, lakin ilk 6 ayda icra edilməyən fəsillər, mln. manatla**

| Fəslin adı | İllik dürüstləşmiş təyinat | 6 aylıq icra |
|---|---|---|
| Qurumlar üzrə | 561,2 | 0,0 |
| Strategiya ilə bağlı tədbirlər üzrə | 836,3 | 0,0 |
| Bölüşdürülməmiş (bloklanmış) xərclər üzrə | 124,5 | 0,0 |
| Digər tədbirlər üzrə | 433,3 | 0,0 |
| **Cəmi** | **1955,3** | **0,0** |

**Debitor borcların həcmində artım müşahidə edilmiş, inzibati təsnifat üzrə siyahıda genişlənmə, iqtisadi təsnifat üzrə siyahıda isə daralma qeydə alınmışdır.**

01.07.2023-cü il tarixinə debitor borcların məbləği 3150,0 mln. manat təşkil etmiş, ilin əvvəlinə nisbətən 95,9 mln. manat və ya 3,1% artmışdır. Xaricdən cəlb edilmiş kreditlər hesabına həyata keçirilən layihələr, dövlət büdcəsindən digər büdcələrə ayırmalar üzrə yaranan borclar bu məbləğə daxil edilmir.

Dövlət büdcəsi xərclərinin iqtisadi təsnifatında maddə və yarımmaddələrdən 36-sı üzrə azalma, 15-i üzrə isə artım olmuşdur. Dövrün əvvəlində debitor borc qeydə alındığı maddə və yarımmaddələrin siyahısı bir qədər azalaraq 49-a enmişdir. Debitor borcun inzibati təsnifat üzrə təhlilinə əsasən, debitor borcların mövcud olduğu istiqamətlərin sayında artım izlənmişdir. Belə ki, hesabat dövrünün əvvəlində debitor borcun qeydə alındığı istiqamətlərin sayı hesabat dövründə 107-yə yüksəlmişdir. Debitor borcların analitik prosedurlarla araşdırılması üzrə 275,5 mln. manatdan çox məbləğində borcun hərəkətində heç bir dəyişikliyin izlənmədiyini göstərir.

**Debitor borcun məbləği, mln. manatla**



# DÖVLƏT BÜDCƏSİNİN KƏSİRİ

*2023-cü ilin 6 ayı üzrə dövlət büdcəsinin profisiti 2307,5 mln. manat nəzərdə tutulmuş, 1416,6 mln. manat profisit yaranmışdır ki, bu da proqnozlaşdırılan göstərici ilə müqayisədə 890,9 mln. manat azdır. Baxılan dövrün sonunda profisitin olması fonunda dövlət büdcəsi kəsirinin maliyyələşdirilməsi mənbələri üzrə daxilolmalar 464,7 mln. manat olmuşdur.*

**Hesabat dövründə dövlət büdcəsinin profisitlə icra olunması şəraitində kəsirin maliyyələşdirilməsi üzrə daxilolmalar nəzərdə tutulduğundan az icra edilmişdir.**

2023-cü il üçün dövlət büdcəsi kəsirinin yuxarı həddi ilkin olaraq 2579,3 mln. manat məbləğində təsdiq edilmiş, sonradan müvafiq qaydada dəyişikliklər edilərək 2734,3 mln. manata çatdırılmış, onun maliyyələşdirilməsinin özəlləşdirmədən, digər mənbələrdən daxilolmalar (daxili və xarici borclanma, 2023-cü ilin 1 yanvar tarixinə dövlət büdcəsinin vahid xəzinə hesabının qalığı) hesabına həyata keçirilməsi nəzərdə tutulmuşdur.

2023-cü ilin 6 ayı üzrə dövlət büdcəsinin gəlirləri 15608,8 mln. manat, xərclər 13301,3 mln. manat, profisiti isə 2307,5 mln. manat nəzərdə tutulmuş, faktiki icra gəlirlər üzrə 15479,9 mln. manat manat, xərclər üzrə 14063,3 mln. manat olmuş, nəticədə 1416,6 mln. manat profisit yaranmışdır ki, bu da proqnozlaşdırılan göstərici ilə müqayisədə 890,9 mln. manat azdır.

Dövlət büdcəsi kəsirinin maliyyələşdirilməsi mənbələri üzrə daxilolmalar 2023-cü ilin 6 ayı üzrə 711,5 mln. manat nəzərdə tutulmuş, profisitin olması fonunda icra 464,7 mln. manat olmuşdur.

**Özəlləşdirilmədən daxilolmalar dövlət büdcəsinə hesablanmış, lakin ödənilməmiş borc qalıqlarının da azalması hesabına dövrün proqnozunu 2,6 dəfə üstələmişdir.**

2023-cü ilin 6 ayında dövlət əmlakının özəlləşdirilməsindən 60,5 mln. manat daxil olmuşdur ki, bu da dövrün proqnozunu ilə müqayisədə 36,9 mln. manat və ya 2,6 dəfə, ötən ilin 6 ayı ilə müqayisədə 34,6 mln. manat və ya 2,3 dəfə çox olmuşdur. Cari ilin 6 ayı ərzində 50,6 mln. manat dəyərində dövlət əmlakı özəlləşdirilmiş, 9,9 mln. manat vəsait isə dövlət büdcəsinə ödənilməmiş vəsaitlər üzrə qalıq məbləğinin azalması hesabına daxil olmuşdur.

**2023-cü ilin 6 ayında özəlləşdirmədən daxilolmalar, mln. manatla**

| Daxilolma mənbələri | Məbləğ |
|---|---|
| Kiçik dövlət müəssisələrinin (obyektlərinin) özəlləşdirilməsi (torpaq sahəsi ilə birlikdə satılan obyektlər daxil olmaqla) | 11,4 |
| İnvestisiya müsabiqəsi vasitəsi ilə əmlakın (səhmlərin) satışı | 3,1 |
| Səhmdar cəmiyyətlərinə çevrilmiş dövlət müəssisələrinin (obyektlərinin) səhmlərinin pullu hərraclarda satışı | 0,3 |
| Özəlləşdirilən dövlət müəssisələrinin (obyektlərinin) və qeyri-dövlət vəsaiti hesabına inşa edilmiş müəssisə və obyektlərin yerləşdiyi torpaq sahələrinin özəlləşdirilməsi (satışı) | 43,1 |
| Özəlləşdirmə prosesində yaradılmış və səhmləri bütövlükdə yaxud qismən dövlətə məxsus (nizamnamə kapitalında dövlət payı olan) səhmdar cəmiyyətlərin dividendləri | 0,07 |
| Dövlət əmlakının idarəetməyə verilməsindən daxilolmalar | 2,5 |

# DÖVLƏT BORCU

*Hesabat dövrünün sonuna ümumi dövlət borcu 16151,0 mln. manat olmaqla ÜDM-in 14,5%-nə bərabər olmuş, birbaşa dövlət borcunun artımı birbaşa daxili borcun artımı hesabına təmin edilmişdir. Birbaşa xarici dövlət borcuna xidmət xərclərinin bir hissəsi dövlət istiqrazlarından əldə edilmiş vəsait hesabına maliyyələşdirilmişdir.*

**Hesabat dövrünün əvvəli ilə müqayisədə birbaşa xarici borc azalmış, birbaşa daxili borc isə artaraq ümumilikdə birbaşa dövlət borcunun həcminin artmasına şərait yaratmışdır.**

Dövlət büdcəsində 2023-cü il üçün yuxarı hədd (limit) daxili dövlət borclanması üzrə 1800,0 mln. manat, xarici dövlət borclanması üzrə 750,0 mln. manat, il ərzində veriləcək dövlət zəmanətləri üzrə isə 1000,0 mln. manat müəyyən edilmişdir. 01 iyul 2023-cü il tarixinə ümumi dövlət borcu 16151,0 mln. manat və ya ÜDM-in 14,5%-ni, o cümlədən xarici dövlət borcu 6576,9 mln. ABŞ dolları, daxili dövlət borcu isə 4970,3 mln. manat təşkil etmişdir. Baxılan dövrdə nominal ifadədə birbaşa xarici dövlət borcu azalmış, birbaşa daxili dövlət borcu isə artmış, ilin əvvəli ilə müqayisədə 01 iyul 2023-cü il tarixinə birbaşa dövlət borcu nominal ifadədə 584,4 mln. manat və ÜDM-ə nisbətdə 2,9 faiz bəndi artmışdır.

**Birbaşa xarici və daxili dövlət borcu, mln. manatla**




**Birbaşa dövlət borcuna xidmət xərclərindən əsas borc ödənişlərinin çıxarılması ilə borca xidmət xərcləri ötən ilin eyni dövrü ilə müqayisədə azalmışdır.**

Dövlət borcuna və öhdəliklərinə xidmət edilməsi ilə bağlı xərclər 2023-cü ildə 1182,5 mln. manat, yəni dövlət büdcəsi xərclərinin 3,2%-i həcmində nəzərdə tutulmuşdur. Hesabat dövründə xarici dövlət borcuna xidmət xərcləri 378,5 mln. ABŞ dolları təşkil etmiş, birbaşa xarici dövlət borcuna xidmət xərclərinin 171,1 mln. ABŞ dolları həcmində hissəsi daxili maliyyə bazarında emissiya edilmiş dövlət istiqrazlarından əldə olunmuş vəsait hesabına yenidən maliyyələşdirilmiş, 352,7 mln. manat hissəsi isə dövlət borcuna xidmət xərclərinin hesabına təmin edilmişdir.

**Daxili və xarici dövlət borcu üzrə ödənişlər, mln. manatla**

| Göstəricilər | Proqnoz | | İcra | İcra faizi | | 2022 6 aylıq icra ilə müqayisə | |
|---|---|---|---|---|---|---|---|
| | illik | 6 ay* | 6 ay* | illik | 6 ay | %-lə | məbləğ |
| **Dövlət borcuna xidmət xərcləri** | **1182,5** | **400,5** | **430,8** | **36,4** | **107,6** | **54,7** | **-357,3** |
| ***Daxili dövlət borcu üzrə*** | ***265,0*** | ***91,7*** | ***78,1*** | ***29,5*** | ***85,2*** | ***81,8*** | ***-17,4*** |
| faiz ödənişləri | 265,0 | 91,7 | 78,1 | 29,5 | 85,2 | 81,8 | -17,4 |
| əsas borc ödənişi | 0 | 0 | 0 | 0 | 0 | 0 | -6,9 |
| ***Xarici dövlət borcu üzrə*** | ***917,5*** | ***308,8*** | ***352,7*** | ***38,4*** | ***114,2*** | ***50,9*** | ***-339,8*** |
| faiz ödənişləri | 603,6 | 181,7 | 225,3 | 37,3 | 124,0 | 129,2 | 50,9 |
| əsas borc ödənişi | 313,9 | 127,1 | 127,4 | 40,6 | 100,2 | 24,6 | -390,8 |

*bank xərcləri çıxılmaqla